**Azərbaycan Respublikası**
**Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**

# S Ə R Ə N C A M I

**№ 209** **“ 30 ” Sentyabr 2016-cı il**

## Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasının təmin edilməsi tədbirləri haqqında

“Azərbaycan Respublikasında həqiqi hərbi xidmətə çağırışın əsasları haqqında” Azərbaycan Respublikası Qanununa, “Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 9 senyabr 2016-cı il tarixli 2328 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə və “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 3.15.4-cü, 3.15.5-ci bəndlərinin tələblərinə əsasən

**q ə r a r a  a l ı r a m:**

1. 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşların 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasını təmin etmək məqsədilə aşağıdakı tərkibdə Rayon Çağırış Komissiyası yaradılsın:

| | | |
|---|---|---|
| M. Qurbanov | – | Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinin rəisi, polkovnik-leytenant, komissiyanın sədri |
| İ. Süleymanov | – | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, komissiyanın üzvü |
| O.Süleymanlı | – | Rayon Polis İdarəsinin rəis müavini, komissiyanın üzvü |
| Q. Bayramov | – | İctimaiyyət nümayəndəsi, Rayon Gənclər və İdman İdarəsinin rəisi, komissiyanın üzvü |
| Ş. Əkbərova | – | Hərbi həkim komissiyasının sədri, komissiyanın üzvü |
| X.Salahova | – | Həkim komissiyasının katibi, komissiyanın üzvü |
| Ə. Nayıbov | – | Terapevt, komissiyanın üzvü |
| R.İsgəndərov | – | Cərrah, komissiyanın üzvü |
| T. Paşayev | – | Nevropatoloq, komissiyanın üzvü |
| V.Həsənova | – | Dəri-zöhrəvi həkim, komissiyanın üzvü |

| | | |
|---|---|---|
| Ə. Bayramlı | – | Qulaq – burun boğaz həkimi, komissiyanın üzvü |
| T.İsmayılov | – | Ruhi-əsəb xəstəlikləri həkimi, komissiyanın üzvü |
| N.Ramazanova | – | Göz həkimi, komissiyanın üzvü |
| N.Şahmarov | – | Stomatoloq, komissiyanın üzvü |
| A.Cəfərova | – | Köməkçi tibb bacısı, komissiyanın üzvü |
| H.Mürvətova | – | Köməkçi tibb bacısı, komissiyanın üzvü |

**2.** Nəzərə alınsın ki, mövcud qanunvericiliyə əsasən Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinə ayrılan tibb işçilərinin iş yerləri və əmək haqları Komissiyanın fəaliyyəti müddətində saxlanılır.

**3.** Ə.D.Məlikov adına 6 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi N.Məmmədova tapşırılsın ki, çağırış məntəqəsini lazımi tibb avadanlıqlarla təmin etsin və xəstələri müayinəyə göndərmək üçün 01.10.2016-cı il tarixdən 30.10.2016-cı il tarixinə qədər SHXÇDX-nin Binəqədi rayon İdarəsinin sərəncamına bir ədəd təcili yardım maşını ayırsın.

**4.** Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanova tapşırılsın ki, hərbi çağırışla əlaqədar rayonda keçiriləcək bütün tədbirlərin yüksək səviyyədə təşkil olunması məqsədilə Biləcəri və Məmməd Əmin Rəsulzadə qəsəbələrindəki Mədəniyyət evlərinin musiqiçilərini cəlb etsin, Böyük Vətən və Qarabağ müharibəsi veteranlarının iştirakını təmin etsin.

**5.** Rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinə tövsiyə olunsun ki, həqiqi hərbi xidmətə çağırılan vətəndaşların ailələrinə qayğı göstərilsin, bu ailələrə olan güzəştlər və müavinətlər haqqında qüvvədə olan qanunvericiliyə əməl etsinlər.

**6.** Binəqədi Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Namiq İsmayılova tövsiyə olunsun ki, çağırışdan yayınan çağırışçıların axtarılıb tapılmasında SHXÇDX-nin Binəqədi rayon İdarəsinə yaxından köməklik göstərsin və ictimai asayişin təmin edilməsi üçün çağırış məntəqəsinə lazımi qədər polis nəfəri ayırsın.

**7.** Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanova tapşırılsın ki, çağırışçıların hərbi hissələrə aparılması üçün 01.10.2016-cı il tarixdən 30.10.2016-cı il tarixə qədər saat 09.00-dan 18.00-kimi 2 ədəd avtobus ayrılmasını təşkil etsin.

**Xaləddin İsgəndərov**

**№ 212**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

**Elnur İmanov**